# Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması beynəlxalq hüququn, ədalətin bərpasıdır



***Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 18-də Laçın işğala məruz qaldı. Qəsbkarın belə bir faşist niyyətinin reallaşmasının əsas səbəblərindən biri məhz o zamankı AXC-Müsavat iqtidarının yarıtmaz siyasəti, idarəetmə bacarıqsızlığı idi. Həmçinin həmin dövrdə respublikada müxtəlif siyasi qüvvələrin hakimiyyət hərisliyi o dərəcədə idi ki, düşmənlə qeyri-bərabər döyüşlərdə əsl qəhrəmanlıq göstərən Laçının müdafiəsi unudulub arxa plana keçdi. Rayondakı döyüşçülərin böyük hissəsi paytaxta çağırılaraq, hakimiyyət çevrilişinə cəlb edildi. Düşmən qarşısında köməksiz qalan bir qrup laçınlı döyüşçü isə mərdliklə vuruşaraq, qəhrəmanlıq nümunələri göstərdi. Çox sayda qurbanlar verilsə də, təəssüf ki, Laçın düşmən əlinə keçdi.***



Bu məqamda onu da xatırladaq ki, BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə Azərbaycan ərazilərinin işğalını pisləyib, respublikamızın ərazi bütövlüyünü, suverenliyini və keçmiş Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləyərək, işğalçı qüvvələrin zəbt olunan ərazilərdən dərhal, qeyd-şərtsiz, tam çıxarılmasını tələb edib. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, eləcə də digər beynəlxalq təşkilatların qərarlarının tələblərinə 30 ilə yaxın bir dövrdə məhəl qoymayaraq onları ciddi şəkildə pozub və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdüb.

Beləliklə, Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüz siyasətinin davamı olan Laçın rayonunun işğalı nəticəsində bölgənin əhalisi etnik təmizləməyə məruz qaldı və 77 min 518 nəfər sakinin respublikamızın müxtəlif bölgələrində məcburi köçkün həyatı başladı.

İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasına öz sarsılmaz gücü, qüdrəti, qətiyyəti sayəsində daxil olduğunu əyani surətdə təsdiqlədi. Azərbaycanın hərbi-siyasi qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr Bəyanatının müddəalarına uyğun olaraq Kəlbəcər, Ağdam və Laçın döyüşsüz təhvil verildi.

Ermənistan 30 ilə yaxın müddətdə Cenevrə Konvensiyasının müddəalarını kobudcasına pozaraq Laçın bölgəsində Azərbaycan kəndlərinin və şəhərlərinin adlarını, buradakı demoqrafik situasiyanı dəyişib, rayonun zəngin təbii sərvətlərini talan edib, 200-dən artıq tarixi mədəniyyət abidəsi və məbədləri, o cümlədən qədim Alban kilsəsini dağıdıb və ya təhqir edib, XIV əsrə aid Malik Əjdər türbəsini, Qaraqışlaq kəndində məscidi və Zabuxda qəbiristanlığı viran qoyub.

"Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qərar ilk beynəlxalq məhkəmə qərarıdır. Avropa İnsan Hüquqları Məhkəməsinin həmin qərarı ilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Azərbaycan torpaqlarının işğal faktı sübuta yetirilir və Ermənistan işğalçı dövlət kimi tanınır. Ermənistan məcburi köçkünlərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıyır.

Avropa İnsan Haqları Məhkəməsinin qərarında bildirilib ki, Azərbaycanın işğal altında olan ərazilərində insan hüquqlarının pozuntusu ilə bağlı bütün hallara görə məsuliyyəti məhz Ermənistan daşıyır. Qərar üzrə Ermənistanın daha bir öhdəliyi azərbaycanlı məcburi köçkünlərin birbaşa Ermənistan dövlətinə qarşı iddialarına baxılması üçün mexanizm yaratmasıdır.

Ötən 7 ildə Ermənistan nəinki bu mexanizmi yaratmayıb, Avropa Şurası Nazirlər Komitəsi də bunun üçün Ermənistana heç bir təzyiq etməyib. Ermənistan, həmçinin ötən müddətdə Avropa İnsan Haqları Məhkəməsinin qərarına hörmətsizlik edərək, azərbaycanlı məcburi köçkünlərə təzminatı ödəməkdən yayınıb.

İşğalçı Azərbaycana qarşı bu qədər dağıntı törətməsi, bu qədər vəhşilik və vandalizm həyata keçirməsi ilə kifayətlənməyərək, hazırda Beynəlxalq Ədalət Məhkəməsində İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Konvensiya əsasında respublikamıza qarşı həyasız, fitnəkar iddialarla çıxış edir. Bu iddiaları irəli sürən erməni faşist rejimi beynəlxalq ictimaiyyət qarşısında məsuliyyətdən müxtəlif əyri yollarla yayınır. Amma beynəlxalq konvensiyaların imkanları daxilində Azərbaycanın Ermənistana qarşı irəli sürdüyü iddiaların təsdiqi sayəsində işğalçının cəzalandırılacağı, təzminat ödəyəcəyi heç bir şübhə doğurmur.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bununla bağlı Şuşada jurnalistlərə müsahibəsində bildirib ki, işğal dövründə qəsbkar ölkənin Azərbaycanın ərazilərinin, o cümlədən Laçının etnik-dini tərkibini dəyişdirməsi, mədəniyyət abidələrini məhv etməsi, arxitektura üslubunu pozması müharibə cinayətləri kimi tövsif olunan hallardır. Ermənistan tərəfindən həyata keçirilən bu addımlar, xüsusən Zabux və Sus kəndlərinə regionla hər hansı əlaqəsi olmayan, Yaxın Şərqdən olan insanların köçürülməsi belə hallardandır.

Xatırladım ki, dövlətimizin başçısı tərəfindən bununla bağlı müvafiq strukturlara müəyyən tapşırıqlar verilib. Təhlükəsizlik tədbirləri, minaların təmizlənməsi həyata keçiriləndən sonra müvafiq faktaraşdırıcı, sənədləşdirmə missiyalarının həyata keçiriləcəyi nəzərdə tutulub.

Burada son günlər xalqımızın sevincinə səbəb olan bir tarixi hadisə ilə bağlı da fikirlərimi diqqətə çatdırmaq istərdim. Əvvəlcə onu deyim ki, zamanında qoruya bilmədiyimiz Laçını heç vaxt görməyən, ancaq televiziyalardan və verilişlərdən izləyən Azərbaycan gəncliyi azad etdi. Bu ərazilər yazının əvvəlində bildirdiyim kimi, vahid komandanlığın yoxluğu, müxtəlif siyasi qüvvələrin silahlı bölmələrə malik olub hər birinin fərqli istiqamətlərdə fəaliyyət göstərməsi nəticəsində işğala məruz qaldı.

Nəhayət, bütün bunlara son qoyuldu və laçınlılar Laçına əbədi qayıtdı. Prezident, Ali Baş Komandan İlham Əliyev avqustun 26-da "Tvitter" səhifəsində paylaşım etdi: "...biz Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Bununla da 10 noyabr 2020-ci il tarixli Bəyanatda öz ifadəsini tapan bənd reallaşdı. Başqa sözlə, Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçdi.

Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana qaytarılması, ilk növbədə, beynəlxalq hüququn, ədalətin bərpasıdır. Belə ki, 1994-cü ildə həmin ərazilərdə qanunsuz məskunlaşmanın aparılması Ermənistanın müharibə cinayətlərinin növbəti təzahürüdür və Cenevrə konvensiyalarının ciddi pozuntusuna yol verilmişdir. Buraya köçürülən erməni ailələri heç zaman Qarabağda, hətta Ermənistanda belə yaşamayıblar. Onlar Suriyada, Livanda yaşayan ermənilərdir. Ona görə də qarşı tərəfin apardığı bu qanunsuz məskunlaşma siyasəti müharibə cinayət olmaqla bərabər Ermənistan üçün beynəlxalq hüquqi məsuliyyət yaradır.

Onu da bildirim ki, Laçın dəhlizinə alternativ yol salındıqdan sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisindən kənarda yerləşən yaşayış məntəqələrinin, o cümlədən, ermənilərin 30 il ərzində məskunlaşdıqları Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycana təhvil veriləcəyi ilə bağlı 10 noyabr 2020-ci il tarixli Bəyanatda göstərilib: "Tərəflərin razılığı əsasında növbəti üç il ərzində keçmiş Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir".

Beləliklə, sözügedən Bəyanatda yeni alternatv yolun üç il ərzində çəkiləcəyi planlaşdırılıb və bu məsələnin kapitulyasiya aktına salınması isə məhz Prezident İlham Əliyevin qətiyyəti, iradəsi ilə reallaşıb.

Dövlətimizin başçısı avqustun 12-də Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibəsində də bu barədə deyib: "Ermənistanı Xankəndi ilə birləşdirən yol Laçın şəhərinin içindən keçir. Əgər bu bənd olmasa idi, o zaman Laçın şəhəri beş kilometr enində olan zonaya düşəcəkdi və tez bir zamanda oraya keçmiş köçkünləri qaytarmaq mümkün olmayacaqdı".

Xatırladaq ki, Vətən müharibəsindən ötən iki ilə yaxın bir müddətdə Ermənistanı Xankəndi ilə birləşdirən 32 kilometr uzunluğunda olan yeni alternativ yol bir ildən bir qədər artıq vaxt ərzində inşa edilib və hazırda Rusiya sülhməramlıları həmin yol ətrafında qərarlaşıb. Təbii ki, Laçın şəhəri, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşdırılan ermənilər də həmin yaşayış məntəqələrindən tamamilə çıxarılıb.

Burada onu da qeyd edim ki, ermənilər azərbaycanlılara məxsus o yaşayış sahələrindən çıxarılarkən, yenə də vəhşiliklər, barbarlıqlar nümayiş etdirdilər. Evləri, meşələri yandırdılar, hətta öz doğmalarının qəbirlərini də dağıdaraq cəsədləri özləri ilə apardılar.

Ermənilər ötən 30 il ərzində yaxşı bilirdilər ki, gec-tez bu torpaqların əsl sahibləri gələcək və onlar bu əraziləri tərk edəcəklər. Amma indi vandal əməllər törətməklə – evləri, meşələri yandırmaqla, infrastrukturu dağıtmaqla bütün dünyaya naqisliklərini, vəhşiliklərini göstərirlər. Amma bilməlidirlər ki, onlar bu murdarlıqları ilə heç nəyə nail ola bilməyəcəklər. İndi xaraba qoyduqları bu yerlər də Şuşa, Füzuli, Zəngilan və digər şəhər və rayonlarımız kimi yenidən tikilib-qurulacaq, dünyanın ən abad məkanlarından birinə çevriləcək.

Laçın şəhərindən 30 il əvvəl məcburi köçkün düşmüş və respublikamızın müxtəlif yerlərində müvəqqəti məskunlaşmış həmvətənlərimizin doğma yurda qayıdışa hazırlanması barədə Prezident İlham Əliyevin verdiyi tapşırığın icrasına başlanıb. Bu məqsədlə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində onların bir qrupu ilə görüş keçirilib. Həmin görüşdə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun erməni faşizmi üzərində parlaq qələbəsi nəticəsində düşmənin bir güllə atmadan tərk etdiyi Laçın şəhərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının, üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq, dislokasiyanın dəyişdirilməsi, qanunsuz məskunlaşdırılmış ermənilərin bu ərazidən çıxarılması dövlətimizin gücünün, qüdrətinin növbəti nümayişi kimi dəyərləndirilib. Qanunsuz məskunlaşdıqları yerlərdən çıxarkən ermənilərin evləri və meşə sahələrini yandıraraq, yenidən vandalizm törətməsi qətiyyətlə pislənilib.

Laçınlılar məcburi köçkünlük dövründə onlara hərtərəfli dövlət qayğısı göstərildiyini bildirərək həm buna görə, həm də ata-baba torpaqlarına qayıtmaq arzularını gerçəkləşdirdiyi üçün dövlətimizin başçısına minnətdarlıq bildiriblər, Birinci vitse-prezident Mehriban Əliyevanın köçkünlüklə bağlı problemlərin həlli ilə əlaqədar gördüyü işləri dərin razılıq hissi ilə xatırladıblar.

Görüşdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Böyük Qayıdışa hazırlıq məqsədilə həyata keçirdiyi tədbirlər barədə də ətraflı danışılıb. Eyni zamanda, məcburi köçkünlüyü başa çatan vətəndaşların könüllü, təhlükəsiz şəraitdə və ləyaqətlə doğma yurda qayıdışını təmin etmək üçün dövlətimizin başçısının tapşırığı ilə bütün lazımi tədbirlər həyata keçirildiyi də bir daha diqqətə çatdırılıb.

Artıq qısa müddətdə Laçın şəhəri, Zabux və Sus kəndlərində müvafiq qurumların xidmət fəaliyyəti təşkil olunub. "Azərsu" ASC-nin mühəndis-texniki heyəti, qəza-bərpa briqadasından ibarət qrup Laçın şəhərində işlərə başlayıb. Şəhərə alternativ bulaqlardan suyun gətirilməsi təmin edilib, "Azərenerji" ASC ermənilər tərəfindən dağıdılmış yarımstansiyanın ilkin bərpası istiqamətində qısa müddətdə xeyli iş görüb - əraziyə transformatorlar, lazımi elektrik avadanlığı və texnika gətirilib. Laçında cəmi dörd gündə ölkə enerji sistemi ilə əlaqələndirilmiş şəbəkə yaradılıb.

***Rövşən ƏLVƏNDOV,***
***dövlət qulluğunun müşaviri,***
***ehtiyatda olan polkovnik***

Xalq qəzeti .- 2022.- 6 sentyabr.- S.5.